“RAZILAŞDIRILIB”
“Bakı Metropoliteni” QSC-nin
Tunel Qurğuları xidmətinin rəisi

________________Kamran Əliyev

“_____”________________2026-cı il

“TƏSDİQ EDİRƏM”
“Bakı Metropoliteni” QSC-nin
İstismar üzrə baş mühəndisi

________________ Namiq Yusubov

“_____”________________2026-cı il

“Bakı Metropoliteni” QSC-nin
İstehsalat Texniki xidmətin baş mühəndisi

________________Rüfət Qasımov

“_____”________________2026-cı il

“20 Yanvar”, “Elmlər Akademiyası”, “Cəfər Cabbarlı”, “Memar Əcəmi”, “Əhmədli”, “Qara Qarayev”, “Gənclik”, “Həzi Aslanov”, “İnşaatçılar”, “Neftçilər”, Nəriman Nərimanov”, “Nəsimi”, “Xalqlar Dostluğu” stansiyalarının keçid parapetlərinin hündürlüyü 100 sm-dən az olan keçid parapetlərinin üzərinə quraşdırılacaq paslanmaz məhəccər üçün

TEXNİKİ TAPŞIRIQ

Bu texniki tapşırıqlar yer səthindən hündürlüyü 100 sm-dən az olan, “Bakı Metropoliteni” QSC-yə aid olan stansiya keçidləri parapetlərinin hündürlüyünü minimum 110 sm vəziyyətə gətirmək üçün üzərinə paslanmaz məhəccərlərin quraşdırılması işlərinin texniki xüsusiyyətlərini əks etdirir.

**Təhlükəsizlik tələbləri:**

• Məhəccərin quraşdırılması zamanı işçilər fərdi qoruyucu vasitələrdən (kask, kəmər, əlcəklər, qoruyucu ayaqqabı və s.) istifadə etməlidir.
• Quraşdırma zamanı istifadə olunan alətlər və avadanlıq təhlükəsizlik standartlarına cavab verməli və düzgün işlək vəziyyətdə olmalıdır.
• İş sahəsi işçilər üçün təhlükəsiz şəraitdə təşkil edilməli, kənar şəxslərin girişinə nəzarət olunmalıdır.
• Sərt iqlim şəraitində iş yalnız xüsusi icazə və nəzarət altında aparılmalıdır.
• Hər hansı nasazlıq, boşluq və ya təhlükəli vəziyyət yaranarsa, iş dərhal dayandırılmalı və məsul şəxsə xəbər verilməlidir. Əlavə olunsun

**Texniki xüsusiyyətlər aşağıdakı kimi olacaq:**

.1. Məhəccərin bütün detalları paslanmayan metaldan olmalı və sərt iqlim təsirlərinə davamlı olmalı və sertifikatlı materiallardan istifadə olunmalıdır.
.2. Məhəccərin üst borusu Ø 51 mm, dirək borusu Ø 38 mm, üfüqi millər Ø 16 mm olmalıdır.
.3. Metal elementlərinin minimum divar qalınlığı üfüqi mil üçün δ=1.6 mm, üst boru və dirək üçün δ=2 mm-dən az olmamalıdır.

.4. Dirəklər təqdim edilmiş cizgilərə uyğun parapet səthinə ankerlənməli və müvafiq xüsusiyyətə malik anker yapışqanı ilə möhkəmləndirilməlidir. Digər birləşmə elementləri (şurup, bolt, qayka və s.) paslanmayan metaldan olmalıdır.
.5. Məhəccər üzərinə quraşdırılan boru sonluqları (ağızlıqları) xüsusi aksesuar (qaynaq üsulu ilə tövsiyə olunur) bərkidilməklə qapanmalıdır.
.6. Məhəccər dirəkləri keçidin çöl kənarından 10sm-dən çox olmamaqla bərkidilməlidir, istisna hallar yaranan zaman bu, “Bakı Metropoliteni” QSC-nin bu iş üçün məsul şəxsləri ilə razılaşdırılmalıdır.
.7. Dirəklər möhkəm bərkidilməli və heç bir boşluq, laxlama halları olmamalıdır. Uzun məsafələrdə parapetin üzərində iç tərəfə doğru çəp dəstəkləyici dirəklərin bağlanmasına yol verilir.
.8. Kənarları kəskin, iti uclu və s. bu tipli insanlara zərər verə biləcək detallardan istifadə edilməsi yol verilməzdir.
.9. Dirəklərin birləşmə yerləri, anker boltların ətrafı tam hermetikləşdirilməlidir.
.10. Parapet üzərində dəlik elə açılmalıdır ki, səthin üzlük daşında çatlama, qırılma, yanma, yanıq izləri olmasın.
.11. Üfüqi millər arası məsafə 15-17 sm aralığında, şaquli dirəklər arası məsafə 90-110 sm arasında olmalıdır. İstisna hallar yaranan zaman bu, “Bakı Metropoliteni” QSC-nin bu iş üçün məsul şəxsləri ilə razılaşdırılmalıdır.
.12. Yer səthindən məhəccərin üstünə qədər olan məsafə minimum 110 sm olmalıdır.
.13. Podratçı təşkilat tərəfindən yerinə yetirilən işlərə 3 il müddətində zəmanət verilməsi məqsədəuyğun hesab edilir.
.14. Zəmanət müddəti ərzində baş verən hər hansı nasazlığın podratçı təşkilat tərəfindən aradan qaldırılması mexanizmi tərəflər arasında razılaşdırılmalıdır.

**Məhəccərin hazırlanması və quraşdırılması üzrə detallı texniki cizgilər (quraşdırılması nəzərdə tutulan yerlər üçün ayrı-ayrılıqda) hazırlanmalı, “Bakı Metropoliteni” QSC-nin bu iş üçün məsul şəxsləri ilə razılaşdırılmalı və texniki tapşırığa əlavə olunmalıdır.**

**Müvafiq tələblərə cavab verən işçi qüvvəsi olmalıdır.**

**İcraçı təşkilatın müvafiq texniki imkanları və maddi-texniki bazası olmalı və aşağıda göstərilən tələblərə cavab verməlidir:**

- Müvafiq tələblərə cavab verən işçi qüvvəsi olmalıdır
- İcraçı işlərin yerinə yetirilməsi üçün kifayət olan avadanlıq və alətlər dəstinə (özünə məxsus və ya icarəyə götürülmüş) malik olmalıdır.
- İcraçının müvafiq təsdiqedici sənədləri olmalıdır. (işçilərin sertifikatı, nəqliyyat vasitəsinin, maşın mexanizminin qeydiyyat şəhadətnaməsi, icarə, lizinq müqaviləsi və s.)

Tunel Qurğuları xidmətinin baş mühəndisi Əli Cəfərli